## BQXK-ya məxsus avtomobillər yenidən Laçın yolundan keçib



**Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 9 nəqliyyat vasitəsi yenidən Laçın yolundan keçib.**

Trend-in aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, BQXK-ya məxsus 8 minik və bir yük avtomobilinin maneəsiz keçidi üçün şərait yaradılıb.

*Xatırladaq ki, səhər saatlarında da BQXK-ya məxsus avtomobillər Xankəndidən Laçın istiqamətinə hərəkət ediblər.*

*Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazidə humanitar məqsədli maşınların hərəkəti sərbəstdir və buna heç bir maneə yoxdur.*

## Bu il əhali ötənilki səviyyədə içməli su ilə təmin ediləcək



**”Bu gün təəssüf ki, içməli sudan təyinatı üzrə istifadə olunmur”.**

Bunu ”Azərsu” ASC-nin sədr müavini Etibar Məmmədov ”Ölkədə su qıtlığının səbəbləri və mövcud vəziyyət” mövzusunda keçirilən brifinqdə deyib. O bildirib ki, Sovet dövründə texniki su xətləri olub, lakin zaman-zaman sıradan çıxıb:

“İçməli su ilə bağlı 2022-ci ildə əhalini necə təmin etmişiksə, 2023-cü ildə də eyni səviyyədə təmin edəcəyik”.


№ 45 (5806) 2023-cü il

# ŞƏRQ

Qiyməti 40 qəpik

Günəş Şərqdən doğur!

www.sherg.az 11 mart 2023-cü il (şənbə)






# DTX əməliyyat keçirdi

### Terror aktı ilə bağlı yanlış məlumat yayan şəxs müəyyən olunaraq saxlanılıb

**Sosial şəbəkələrdə Bakı Metropolitenində terror aktının törədiləcəyi ilə bağlı yayılmış və vətəndaşlar arasında ciddi narahatlığa səbəb olmuş səs yazısı barədə dərhal Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilib.**

“Şərq” xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidməti məlumat yayıb.

Faktla bağlı başlanılmış cinayət işi üzrə aparılan ibtidai araşdırma zamanı müvafiq səs yazısının Azərbaycan Respublikasının vətəndaşı, 2001-ci il təvəllüdlü Butayev Fərid Fərhad oğluna məxsus olduğu və sözügedən materialın həmin şəxs tərəfindən ”WhatsApp” tətbiqi vasitəsilə paylaşıldığı müəyyən edilib.

Fərid Butayev saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 216-cı (terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə) maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Əhali arasında vahimə yaratmaq məqsədi güdən analoji əməllərin qanunla müəyyən olunmuş qaydada ciddi hüquqi məsuliyyət yaratdığı barədə bir daha xəbərdarlıq edilir.



## Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycana işgüzar səfərə gəlib

**Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev X Qlobal Bakı Forumunda iştirak etmək üçün martın 10-da Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Bolqarıstan Prezidentini Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və digər rəsmi şəxslər qarşılayıblar.

## Aİ Azərbaycanın ölüm hökmünü qadağan edən protokolu imzalamasını təqdir edib



**Avropa İttifaqı Azərbaycanın Avropa İnsan Hüquqları Konvensiyasının bütün hallarda ölüm hökmünü qadağan edən protokolunu imzalamasını təqdir edib.**

APA xəbər verir ki, bu barədə Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsinin sözçüsü Peter Stano bildirib.

Onun sözlərinə görə, artıq Avropa Şurasının 46 üzvünün hamısı bu konvensiyanı imzalayıb.

”Prinsip etibarı ilə Avropa İttifaqı hər zaman və bütün hallarda qəti və birmənalı şəkildə ölüm hökmünün əleyhinədir. Bu, qəddar və qeyri-insani cəzadır, insan ləyaqətinin və bütövlüyünün inkarını təmsil edir və cinayətə qarşı çəkindirici rol oynamır. Bu, eyni zamanda potensial ədalət səhvlərini düzəltməyə imkan verməyən qəti cəzadır.

Azərbaycanın imzası ilə vurğulandığı kimi, dünyada ölüm cəzasının ləğvi tendensiyası mövcuddur və Aİ hələ də onu tətbiq edən bir neçə ölkədə ölüm hökmünün ləğvi üçün fəaliyyətini davam etdirəcək”, Peter Stano vurğulayıb.

# Bakıda silahlı insidentə görə 3 nəfər saxlanılıb

### Əməliyyat-axtarış tədbirləri davam etdiyi üçün onların adları açıqlanmır



**Dünən Bakıda baş verən silahlı insidentlə bağlı cinayət əməlini törətməkdə şübhəli bilinən 3 nəfər polis əməkdaşları tərəfindən saxlanılıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən bildirilib.

Xəbərə görə, əməliyyat-axtarış tədbirləri davam etdiyi üçün onların adları açıqlanmır.

”Onlardan cinayətdə istifadə olunan tapança aşkar olunaraq götürülüb. Sosial şəbəkələrdə cinayət hadisəsi ilə bağlı olan iddialar əsassızıdır. Əməliyyat-axtarış tədbirləri yekunlaşdıqdan sona əlavə məlumat veriləcəkdir”, məlumatda deyilir.

*Qeyd edək ki, dünən Bakıda, Səməd Vurğun küçəsində baş vermiş silahlı insident nəticəsində 2 nəfər - 2002-ci il təvəllüdlü Fəqan Rəhimli, 1983-cü təvəllüdlü Tamerlan Hüseynov xəsarət alıb. Onlar xəstəxanaya çatdırılıb.*

# Ağstafaya sürət qatarının bileti 17 manatdır

### Bu məsafə 4 saat 55 dəqiqəyə qət olunacaq




“Azərbaycan Dəmir Yolları” (ADY) Qapalı Səhmdar Cəmiyyəti martın 18-dən etibarən Bakı-Gəncə-Bakı istiqamətində hərəkət edən sürətli qatarın marşrutunu Ağstafa stansiyasına qədər uzadaraq Bakı-Ağstafa-Bakı marşrutu üzrə ilk dəfə sürətli qatarla sərnişin daşımalarını həyata keçirəcək.

ADY-dən”Şərq”ə verilən məlumata görə, biletlər martın 10-dan satışa çıxarılacaq.

(səh.3)




## Ərdoğanın vasitəçiliyi baş tutmayacaq

### Rusiya və Ukrayna arasında diplomatik danışıqlar mümkün görünmür

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan aprel ayında İstanbulda Rusiya və Ukrayna liderləri Vladimir Putin və Volodimir Zelenski arasında görüş təşkil etmək istəyir. Bunu Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, professor Çağrı Erhan bəyan edib.**

Erhan vurğulayıb ki, Ərdoğanın bu cür danışıqları təşkil edib-etməyəcəyini mühakimə etmək indiki məqamda olduqca çətindir...

(səh.2)

## 4 nəfər ölüb

### 45 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 45 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4-ü vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 828 870 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 516 nəfər müalicə olunaraq sağalıb, 10 142 nəfər vəfat edib, aktiv xəstə sayı 212 nəfərdir.

## Azərbaycanın milli "street food"u heç kimə lazım deyil

### Biz küçə yeməklərini deyil, süfrə mədəniyyətini təbliğ etməli, insanları doğru yola yönəltməliyik



**Küçə yeməyimiz də olacaq. Dönərxanalar, ”fast-food”lar, ”MkDonalds”lar azlıq edir, ”Azərbaycan streed-food”u da üstünə əlavə edilsin.**

Bu, Milli Kulinariya Mərkəzinin yeni ”layihəsi”dir. İcra etməyə çalışırlar. Nə məqsədlə, kimin üçün, qazandığımız - maddiyyatdan savayı - nə olacaq? KİV-ə açıqlamasında Milli Kulinariya Mərkəzinin baş direktoru Orxan Fikrətoğlu deyib ki, ”bu günə qədər Azərbaycanın rəmzinə çevrilən küçə yeməyi, yəni ”street food”u yoxdur”.

(səh.4)



## Nizami Gəncəvi bütünlüklə türk sivilizasiyasının dahisidir

Nizaməddin Şəmsizadə: ” İran-fars şovinistlərinin elə qafası yoxdur ki, onu oxuyub dərk etsinlər, anlasınlar”

(səh.2)



## Elə gün olmur ki, zəlzələ olmasın

Qurban Yetirmişli: Azərbaycanda yaxın günlərdə dağıdıcı zəlzələ ehtimalı yoxdur

(səh.2)